© V.Z.Abbasova, 2013

# NAXÇIVAN MR-DƏ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN TƏSNİFATI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**V.Z.Abbasova**

*Azərbaycan MEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H. Cavid prosp., 115*

Məskunlaşmanın mühüm elementləri olan şəhər və kəndlərin iqtisadi, sosial və demoqrafik inkişaf perspektivlərinin müəyyən edilməsi vacib vəzifələrdən biridir. Möhkəm iqtisadi və sosial bazaya malik olan yaşayış məntəqələri demoqrafik cəhətdən davamlı olaraq inkişaf edir. Ona görə də məntəqələrin təsnifat qruplarında dəyişikliklər gedir. Əlverişsiz təbii-coğrafi şəraitdə, dağlıq ərazilərdə yerləşən yaşayış məntəqələrində kənd təsərrüfatında və əhaliyə xidmət göstərilməsində problemlər yaranır.

Naxçıvan MR-də zəif iqtisadi baza şəhər və kəndlərin inkişafına imkan vermir. İş yerləri ilə təminatda mövcud olan problemlər miqrasiyanın intensiv getməsinə səbəb olur. Ona görə də yaşayış məntəqələrinin təsərrüfat strukturunun yenidən qurulması, əməktutumlu kənd təsərrüfatı məhsullarını emal edən sahələrin yaradılması, xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər görmək lazımdır.

**Mövzunun aktuallığı.** Əhali məskunlaşmasının inkişafında şəhər və kənd yaşayış məntəqələrinin sayı, onlarda əhalinin sayının dinamikası mühüm əhəmiyyət kəsb edir. Əlverişli iqtisadi-coğrafi mövqədə (İCM) yerləşən, dinamik inkişaf edən, davamlı iqtisadi və sosial bazaya malik olan şəhərlər və kəndlər demoqrafik cəhətdən də inkişaf edir. Bu halda miqrasiyanın nizamlanması, əhalinin iş yerləri ilə təmin edilməsi, onlara göstərilən sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi imkanları genişlənir. Davamlı olaraq inkişaf edən yaşayış məntəqələri özünün inkişafı prosesində bir təsnifat qrupundan digərinə keçir. Belə iqtisadi-sosial və demoqrafik vəziyyət məskunlaşma sisteminin formalaşması və inkişafında əsas amil kimi çıxış edir.

**Tədqiqat obyekti.** Azərbaycanın tərkib hissəsi olan Naxçıvan MR-də yaşayış məntəqələrinin inkişafının öyrənilməsində onların təsnifatının aparılması mühüm əhəmiyyət kəsb edir. Yaşayış məntəqələrinin təsnifatının öyrənilməsi ilə mövcud problemlər, onların həlli yolları müəyyən edilir, məntəqələrin inkişafına təsir göstərən təbii-coğrafi və sosial-iqtisadi amillərin rolunun aşkar edilməsi mümkün olur. 2012-ci ildə, işğal edilmiş ərazilər də nəzərə alınmaqla, Azərbaycanda 334 şəhər yaşayış məntəqəsi, o cümlədən 77 şəhər, 4260 kənd məntəqəsi mövcud olmuşdur (Azərbaycanın demoqrafik..., 2012). Bu dövrdə Naxçıvan MR-də 13 şəhər yaşayış məntəqəsi, o cümlədən 5 şəhər, 207 kənd yaşayış məntəqəsi qeydə alınmışdır (Azərbaycanın əhalisi ..., 2012). Respublikanın şəhər yaşayış məntəqələrinin 3,89%-i, şəhərlərin 6,49%-i, kəndlərin 4,86%-i MR-də yerləşir.

**Mövzunun izahı. Şəhər məntəqələrinin təsnifatı.** Yaşayış məntəqələrində əhalinin sayı davamlı olaraq artdığından onların təsnifat qruplarında mövqeyi də daim dəyişir. Lakin MR-də yerləşən şəhərlərdə əhalinin sayı azdır və bu səbəbdən də şəhərlər zəif templə böyüyür. Şəhərlərin iqtisadi bazasının zəifliyi, sosial xidmətlərin aşağı səviyyəsi, iş yerləri ilə təminatda özünü göstərən problemlər miqrasiya intensivliyinin yüksəlməsinə səbəb olur. Nəticədə yaranmış demoqrafik vəziyyət əhalinin sayının davamlı artımına imkan vermir.

2009-cu ildə Naxçıvan MR-də 5 şəhər, 8 qəsəbə mövcud olmuşdur (Azərbaycan Respublikası..., 2000). MR-də əhalisinin sayı 5 min nəfərdən çox olan 5 şəhər vardır, o cümlədən Naxçıvan, Culfa və Ordubad şəhərlərində 10 min nəfərdən çox əhali yaşayır. Əhalisinin sayı 5 min nəfərdən çox olan şəhərlərdə MR-in ümumi əhalisinin 26,36%-i, şəhər əhalisinin 90,9%-i toplanır (105 min nəfər). Əhalisinin sayı 10 min nəfərdən çox olan 3 şəhərdə 93302 nəfər yaşayır. Ümumi əhali arasında onların payı 32,4%, şəhər əhalisi arasında xüsusi çəkisi 80,8%-dir.

MR-in inzibati mərkəzi olan Naxçıvan şəhəri əhalisinin sayına görə irəlidədir. 2012-ci ilin əvvəlində şəhərdə 74,1 min nəfər əhali yaşamışdır (1-ci və 3-cü şəkillər). Bu da MR-in ümumi əhalisinin 17,7%-ni, şəhər əhalisinin 60,89%-ni təşkil edir. Naxçıvan şəhəri ölkənin tarixində mühüm rol oynayır. Tarixi inkişafı döv-

ründə şəhər bir neçə dövlətin paytaxtı olmuş, əlverişli İCM-də yerləşdiyinə görə son 200 ildə MR-in əsas sənaye, sosial-mədəni və demoqrafik potensialının cəmləndiyi mərkəzə çevrilmişdir (Nadirov və b., 2000). Lakin şəhərdə əhalinin sayının artımı zəif templə gedir. Bununla yanaşı, 1970-1990-cı illərdə əhalinin sayı sürətlə artmışdır. 1970-1979-cu illərdə əhalinin sayı 7,1 min nəfər və ya 21,4%, 1979-1989-cu illərdə 18,4 min nəfər və ya 45,6% çoxalmışdır (Eminov, 2005).

Müstəqilliyin ilk illərində yaranan ictimai-siyasi gərginlik miqrasiyanın yüksəlməsi ilə yanaşı, təbii artımın aşağı düşməsinə, şəhərə olan miqrasiyanın azalmasına səbəb olmuşdur. Ona görə şəhərdə əhalinin sayı 1989-1999-cu illərdə 4,4 min nəfər və ya 7,5% çoxalmışdır.

1999-cu ildən sonra yeni təsərrüfat obyektlərinin yaradılması, iş yerləri ilə təminatın yaxşılaşdırılması əhali artımının yüksəlməsinə imkan vermişdir. Lakin son iki siyahıyaalma arasındakı dövrdə olan əhali artımı (8,1 min nəfər və ya 12,8%) əvvəlki dövrlərə nisbətən az olmuşdur.

Şəhərin sosial-demoqrafik inkişafının təmin edilməsi üçün, ilk növbədə, əhalinin mənzillə təmin edilməsi, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi, iş yerləri ilə təminat üçün əmək-tutumlu istehsal sahələrinin yaradılması lazımdır. Naxçıvan şəhərinin inkişafı MR-də olan digər şəhərlərin inkişafına da şərait yaradar.

Əhalisinin sayı 10 min nəfərdən çox olan Ordubad və Culfa şəhərlərində 1990-cı ilə qədər davamlı demoqrafik inkişaf getmişdir. Bu dövrdə şəhərlərdə istehsal obyektləri fəaliyyət göstərmiş, əhalinin iş yerləri ilə təminatı həll edilmiş, mənzil, sosial xidmətlərlə təminat müasir tələblər səviyyəsində qurulmuşdur.




**1-ci şəkil.** Naxçıvan MR-in şəhərlərində əhalinin sayının dəyişməsi (Əhalinin sayı 1999 və 2012-ci illər üçün verilmişdir, min nəfərlə)

Azərbaycanın mühüm tarixi şəhərləri sırasına daxil olan Ordubadda əhalinin sayının uzun illər ərzində 10 min nəfərdən yuxarı qalxmaması onun inkişafının zəif templə getdiyini, iqtisadi və sosial bazasının zəif olduğunu göstərir. Şəhərdə iri istehsal və xidmət obyektlərinin yaradılmaması, uzun illər mövcud olan ipəkçilik sənayesi müəssisələrinin yarımçıq istehsal mərhələsi və son məhsul buraxılışının təşkil edilməməsi, əmək ehtiyatlarından istifadə edilməsində olan problemlər şəhərin inkişafına imkan verməmişdir (Mehrəliyev və b., 1988).

Ordubad şəhərində əhalinin sayı 1970-ci ildəki 6929 nəfərdən 1999-cu ildə 9763 nəfərə yüksəlmiş və ya 40,9% artmışdır. 1999-cu ildən sonra da şəhərdə əhalinin sayı zəif templə artmışdır. Son iki siyahıyaalma arasındakı dövrdə burada əhali sayının artımı 3,4% təşkil etmişdir.

Culfa 1948-ci ildən şəhər statusu qazansa da, əhalinin sayının az olması onun iqtisadi potensialının artması üçün görülən tədbirlərin kifayət qədər olmadığını göstərir. Şəhərdə 1989-cu ildən sonra artım sürəti əvvəlki dövrlərə nisbətən xeyli az olmuşdur. Şəhərdə əhalinin iş yerləri ilə zəif təmin olunması, sosial xidmətin aşağı səviyyəsi, mənzil probleminin həll edilməməsi onun inkişafını ləngidir. 1989-1999-cu illərdə Culfa şəhərində əhalinin sayı 13,4%, sonrakı 10 ildə 17,8% yüksəlmişdir. Hazırda Culfada 12,5 min nəfər əhali yaşayır. Rayonda qəsəbələrin olmaması da şəhər əhalisinin sayının artımına mənfi təsir göstərən amillərdən biridir.

2009-cu ildə MR-də əhalisi 3-5 min nəfər arasında olan şəhər yaşayış məntəqələrinə Şahbuz şəhəri və Babək qəsəbəsi aid olmuşdur (2-ci və 3-cü şəkillər).

Şahbuz 1965-ci ildə qəsəbələr sırasına daxil edilmiş və yenidən yaradılan Şahbuz rayonunun inzibati mərkəzinə çevrilmişdir. Lakin onun əhalisinin sayı azdır və artım zəif templə gedir. 1970-ci ilin əvvəlində qəsəbədə 1465 nəfər əhali olmuşdur. Bu dövrdən sonra əhalinin artım sürəti yüksək olsa da (1970-79-cu illərdə 19,5%, sonrakı on ildə 30,3%), 1999-cu ilə qədər olan müddətdə – 30 ildə bu artım 2 dəfəyə də çatmamışdır (Azərbaycan Respublikası..., 2010). Şahbuza 2007-ci ildə şəhər statusu verildikdən sonra əvvəlki dövrlərə nisbətən əhalinin sayı daha yüksək templə çoxalmışdır. 1999-2009-cu illərdə Şahbuzda əhali 18,3% artmış və 3024 nəfərə

çatmışdır. Hazırda rayon mərkəzində 3,2 min nəfər əhali yaşayır.

Naxçıvan MR-də qəsəbələr şəbəkəsi zəif inkişaf etmişdir və onlar əhalinin sayının az olması ilə fərqlənir (2-ci şəkil). 2009-cu ildə Kəngərli rayonunun inzibati mərkəzi Qıvraq qəsəbəsində əhalinin sayı 5076 nəfər olmuşdur, Babək qəsəbəsində 3324 nəfər, Naxçıvan şəhər ərazi dairəsinə daxil olan Əliabad qəsəbəsində 2581 nəfər əhali yaşamışdır.

Babək və Şərur rayonları ərazilərinin bir hissəsinin hesabına 2004-cü ildə yeni Kəngərli rayonu yaradılmış və rayonun inzibati mərkəzi kimi seçilən Qıvraq kəndinə qəsəbə statusu verilmişdir. Bu səbəbdən də qəsəbənin sosial-iqtisadi bazası yetərli deyil, əhalinin say artımı zəif templə gedir. Problemin həlli üçün kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və xidmət obyektlərinin yaradılması istiqamətində tədbirləri genişləndirmək lazımdır. Eyni zamanda, şəhər əhalisinin sayının artırılması üçün əhalisinin sayı çox olan Xok (5234 nəfər) və Qarabağlar (6377 nəfər) kəndlərinə qəsəbə statusunun verilməsi və bu kəndlərdə infrastruktur şəbəkəsinin yaradılmasına ehtiyac vardır.

Babək qəsəbəsi 1930-cu ildə təşkil edilmiş Naxçıvan rayonunun 1978-ci ildə Babək rayonu adlanmasından sonra yaranmışdır. Lakin burada da artım zəif templə gedir və 2012-ci ildə əhalinin sayı 3,6 min nəfər olmuşdur. Əvvəllər Babək qəsəbəsində əhali artımı yüksək olsa da, son iki siyahıyaalma arasındakı dövrdə əhalinin sayı 8,3% çoxalmışdır. Qəsəbədə iqtisadi və sosial bazanın zəif inkişafı, iri təsərrüfat obyektlərinin olmaması səbəbindən əhalinin artımı aşağı templə gedir.




**2-ci şəkil.** Naxçıvan MR-in qəsəbələrində əhalinin sayının dəyişməsi (Əhalinin sayı 1999 və 2012-ci illər üçün verilmişdir, min nəfərlə)

Əliabad qəsəbəsi 2001-ci ildə Babək rayonundan ayrılmış və Naxçıvan şəhər ərazi dairəsinin tərkibinə qatılmışdır 2002-ci ildə kəndə qəsəbə statusu verilmişdir. Naxçıvan şəhərinə yaxın yerləşməsi onun əhalisinin say artımına, burada təsərrüfat obyektlərinin yaradılmasına imkan verəcəkdir. 2009-cu ildə qəsəbədə 2581 nəfər, 2012-ci ildə 2700 nəfər əhali yaşamışdır. Naxçıvan şəhərinin peyk məntəqəsi kimi mövqedə yerləşməsi qəsəbənin sosial-demoqrafik inkişafının əsas amilidir.

Parağaçay qəsəbəsi Ordubad rayonunda yerləşən mis-molibden yatağının istismar edilməsi əsasında 1952-ci ildə yaradılmışdır. Yatağın istismarının dayandırılması, qəsəbənin 2200 m mütləq hündürlüyə malik əlverişsiz ərazidə yerləşməsi səbəbindən əhalinin yaşaması və əmək fəaliyyəti ilə məşğul olması üçün ciddi problemlər yaranmışdır (Nadirov və b., 2000). Uzun illərdir ki, qəsəbədə əhalinin sayı artmır və 100 nəfərə yaxın olaraq qalır. Hazırda bağçılıq və heyvandarlıq əhalinin əsas məşğulluq sahələridir.

Ağdərə qəsəbəsi də Ordubad rayonunda, 2350 m mütləq yüksəklikdə yerləşir, vaxtilə mövcud olmuş kəndin əsasında yaranmışdır. 1952-ci ildə burada Ağdərə polimetal filiz yatağının istismarı başlanmışdır. Hazırda yataq istismar edilmədiyindən əhali köçüb getmişdir. Sənaye əhəmiyyətli yatağın yenidən istismarı burada infrastruktur şəbəkəsi yaradılmasına, qəsəbənin mənimsənilməsinə və əhalinin sayının artmasına imkan vermiş olar.

Şəhriyar qəsəbəsi 2003-cü ildə Ordubad şəhəri yaxınlığında yerləşən Ordubad kəndinin adının dəyişdirilməsi və ona qəsəbə statusu verilməsi ilə yaradılmışdır. Lakin qəsəbənin əhalisinin sayı azdır (329 nəfər). Məntəqənin inkişaf etməsi üçün ciddi tədbirlərin görülməsinə ehtiyac vardır (2-ci şəkil).

Badamlı qəsəbəsi Şahbuz rayonunda yerləşən Badamlı kəndindən ayrılmış və qəsəbə kimi yaradılmışdır (2003). 2009-cu ildə burada 654 nəfər yaşamışdır. Qəsəbədə mineral suların zəngin mənbəyi yerləşir.

Sədərək təkcə MR-in deyil, bütün ölkənin ən böyük kənd məntəqələrindən biridir. 1990-cı ildə Sədərək rayonu yaradılarkən kəndə qəsəbə statusu verilməklə onun inzibati mərkəzinə çevrilmişdir. Sədərək qəsəbəsində 1999-cu ildə əhalinin sayı 10750 nəfər olmuşdur. 2003-cü ildə rayon mərkəzi olan Sədərək yenidən kənd statusu-

na qaytarılmış, inzibati mərkəz yeni yaradılan və əhalisi bir neçə yüz nəfər təşkil edən məntəqəyə (Heydərabad) keçirilmiş və ona qəsəbə hüququ verilmişdir. Nəticədə Sədərəkdə əhalinin sayı azalaraq 2009-cu ildə 9306 nəfərə enmişdir. Rayonun Kərki kəndi Ermənistanın ərazisində anklav formasında yerləşir və 1990-cı ildə işğal edilmişdir.

**Kənd yaşayış məntəqələrinin təsnifatı.** 2009-cu ildə Naxçıvan MR-də mövcud olan 207 kənd yaşayış məntəqəsində 282,8 min nəfər əhali yaşamışdır (Azərbaycan Respublikası..., 2010). 2012-ci ilin əvvəllərində isə kənd əhalisinin sayı 296,8 min nəfərə çatmışdır.

Kəndlərin əhalisinin sayına görə qruplaşmasının aparılması sosial, iqtisadi və demoqrafik cəhətdən əhəmiyyətlidir. Kəndlər məhsuldar torpaq sahələrinin cəmləndiyi düzənlik, dağətəyi zonalarda, dağlararası çökəkliklərdə, şirin su mənbələri olan çayların və göllərin sahillərində, bir çox hallarda iri şəhərlərə yaxın, əhalini ərzaq məhsulları ilə təmin edən şəhərətrafı zonalarda yerləşir. Bu kəndlərin əhalisi kənd təsərrüfatı məhsullarının becərildiyi təsərrüfatlarda çalışır. Kəndlərin inkişafı əsasən iqtisadi bazanın inkişafından asılıdır. Ölkədə suvarma əkinçiliyi əsasında əməktutumlu kənd təsərrüfatı sahələri inkişaf edir, onların məhsullarının ilkin emalını həyata keçirən müəssisələr fəaliyyət göstərir, bəzən iri kənd məntəqələri formalaşır.

Məhz göstərilən iqtisadi və demoqrafik amillər Naxçıvan MR-də kəndlərin formalaşmasına ciddi təsir göstərir. MR-də kəndlərin əksəriyyəti Şərur (65 kənd), Ordubad (43 kənd), Babək (34 kənd), Culfa (24 kənd) və Şahbuz (23 kənd) rayonlarında yerləşir. Sədərək rayonunun tərkibinə 3, Naxçıvan şəhər inzibati ərazi dairəsinin tərkibinə 5 kənd daxildir. İnzibati rayonlarda kəndlər əhalisinin sayına və qruplaşmada tutduğu mövqelərinə görə bir-birindən fərqlənir (3-cü şəkil).

MR-də əhalisinin sayı 5 min nəfərdən çox olan kəndlər əsasən Araz çayına yaxın düzənlik və dağətəyi zonalarda yerləşir. 2009-cu ildə MR-də əhalisi 5 min nəfərdən çox olan 7 kənddə 55,7 min nəfər əhali məskunlaşmışdır (4-cü və 5-ci şəkillər). Onlar MR-in kənd əhalisinin 19,7%-ni təşkil edir. Bu kəndlərə Babək rayonunda Nehrəm (13752 nəfər) və Cəhri (9115 nəfər) kəndləri, Sədərək kəndi (9306 nəfər), Kəngərli rayonunda Qarabağlar (6377 nəfər) və Xok (5234 nəfər) kəndləri, Culfa rayonunda Yaycı kəndi (6343 nəfər) və Şərur rayonunda Dəmirçi kəndi (5573 nəfər) daxildir. Sədərək və Nehrəm bütün ölkədə əhalisinin sayı ən çox olan kənd yaşayış məntəqələri sırasına daxildir.

1999-cu ildə əhalisinin sayı 5 min nəfərdən çox olmuş 5 kənddə 41,7 min nəfər əhali yaşamış və kənd əhalisinin 16,1%-ni təşkil etmişdir. Sonrakı 10 il ərzində Xok və Dəmirçi kəndləri də bu qrupa daxil olmuşdur.

Növbəti qruplaşmaya daxil olan kəndlərdə 3 min nəfərdən 5 min nəfərə qədər əhali yaşayır. Bu qrupda yaşayan 51,7 min nəfər əhali MR-in kənd əhalisinin 18,3%-ni təşkil edir. Qrupa daxil olan kəndlərin yarısı Şərur rayonunda yerləşir. Rayonun bu kəndlərində 27 min nəfər əhali yaşayır ki, onlar da kənd əhalisinin 28,2%-ni təşkil edir. Babək rayonunda Qahab, Şıxmahmud, Sirab kəndləri, Culfada Bənənyar kəndi, Ordubadda Dəstə kəndi, Kəngərlidə Şaxtaxtı kəndi və Sədərək rayonunda Qaraağac kəndi bu qrupa daxildir.

1999-cu ildə MR-də əhalisi 3-5 min nəfər olan 12 kənddə 46,8 min nəfər əhali yaşamışdır. 1999-2009-cu illərdə qrupda əhalinin sayı 4,9 min nəfər və ya 10,5% artsa da, onların kənd əhalisi arasında payı (18,1%) dəyişməmişdir.

Naxçıvan MR-də əhalisi 2-3 min nəfər olan kəndlərin sayı (14 kənd) əvvəlki qrupla eyni olsa da, əhalinin sayı (33,8 min nəfər) xeyli azdır. Bu qrupda MR-in kənd əhalisinin 12%-i yaşayır. Onların əsas hissəsi Şərur rayonunun payına düşür. Rayonda bu qrupa daxil olan 6 kənddə 14,6 min nəfər yaşayır ki, onlar da kənd əhalisinin 15,3%-i deməkdir. Şərur-Ordubad düzənliyinin Arpa və Araz çaylarının hövzələrinə aid olan hissəsində mövqe tutan Şərur rayonu ölkənin ən sıx məskunlaşan ərazilərindən biridir. Digər rayonlarda əhalisi 2 min nəfərdən 3 min nəfərə qədər olan cəmisi bir neçə kənd vardır.

1999-cu ildə bu qrupa daxil olan 15 kənddə 37,2 min nəfər (kənd əhalisinin 14,4%-i) əhali olmuşdur. Həmin ildə Babək rayonunda 2,0-3,0 min nəfər əhalisi olan 7 kənddə 17,1 min nəfər əhali toplanmışdır. Keçən on ildə bu qrupda yalnız Zeynəddin kəndi (2874 nəfər) qalmışdır. Belə ki, rayondan kəndlərin bir neçəsi Naxçıvan şəhər ərazi dairəsinə verilmiş, bir qismi yeni yaradılan Kəngərli rayonuna keçirilmişdir (Çalxanqala kəndi), bəziləri də inkişaf edərək daha yuxarı qruplarda yer almışdır. Bu qrupda Şərur rayonunda da xeyli sayda (7 kənddə 17,9 min nəfər) əhali toplanmışdır.




**3-cü şəkil.** Naxçıvan MR-də kənd məskunlaşması, 2009




**4-cü şəkil**. Naxçıvan MR-də kəndlərin böyüklüyünə görə qruplaşdırılması




**5-cü şəkil**. Naxçıvan MR-də kəndlərin qrupları üzrə əhalinin paylanması

Ümumilikdə, əhalisinin sayı 2 min nəfərdən çox olan kəndlərin sayı 35-ə çatır. Bu kəndlərdə 141165 nəfər və ya kənd əhalisinin yarısı (49,9%) cəmlənir. Qruplara daxil olan kəndlər məskunlaşmada mühüm yer tutur.

Kəndlərin əksəriyyəti dağətəyi və alçaq dağlıq ərazilərdə yerləşir, əlverişli İCM-ə malikdir və davamlı olaraq iqtisadi və demoqrafik inkişaf perspektivi olması ilə fərqlənir. Yaxın gələcəkdə onların bir neçəsi şəhər və qəsəbəyə çevrilə bilər.

Əhalisinin sayı 200 nəfərdən 2 min nəfərə qədər olan kəndlərin sayı və onlarda toplanan əhali böyük üstünlük təşkil edir. Bu qruplarda ümumilikdə 153 kənd vardır, o cümlədən əhalisinin sayı 1000-2000 nəfər arasında olan qrup kəndlərin (61kənd) və onlarda yaşayan əhalinin sayına görə (85349 nəfər) birinci yeri tutur. Bu qrupda Naxçıvan MR-in kənd əhalisinin 30,2%-i yaşayır.

Ərazi üzrə paylanmasına görə kəndlərin çoxu Şərur (22 kənd), Babək (11 kənd) və Ordubad rayonlarında (10 kənd) yerləşir. Kənd əhalisinin sayı da, müvafiq olaraq, Şərur (31548 nəfər və ya rayonun kənd əhalisinin 33,0%-i), Babək (15357 nəfər və ya 25,8%) və Ordubad rayonlarında (13373 nəfər və ya 38,7%) daha çoxdur. Son vaxtlarda yaradılmış Kəngərli rayonunda bu qrup daxilində 3 kənd (Böyükdüz, Qabıllı və Yurdçu kəndləri), Naxçıvan şəhər ərazi dairəsində 2 kənd (Tumbul və Bulqan kəndləri) vardır.

Qruplaşmada kəndlərin sayına (59 kənd) və bu kəndlərdə yaşayan əhalinin sayına görə (41474 nəfər) ikinci yeri 500-1000 nəfər əhaliyə malik olan yaşayış məntəqələri tutur. Bura kənd əhalisinin 14,5%-i daxildir. Qrup daxilində kəndlərin əsas hissəsi Şərur (19 kənddə 14374 nəfər), Babək, Ordubad və Şahbuz rayonlarında yerləşir. Qruplaşmada aralıq mövqe tutduğuna görə gələcəkdə burada da kəndlərin və əhalinin sayının artacağını söyləmək olar.

Əhalisinin sayı 200 nəfərdən 500 nəfərə qədər olan kəndlər MR-in alçaq dağlıq və dağlıq zonalarında, yollar və kommunikasiya xətlərindən kənar ərazilərdə yerləşir. Bu qrupda yer almış 33 kənddə MR-in kənd əhalisinin 12426 nəfəri və ya 4,4%-i yaşayır. Onların əsas hissəsi Ordubad, Culfa və Şərur rayonlarının payına düşür. Ordubad rayonunda bu qrupa kənd əhalisinin 13,3%-i, Culfa rayonunda 7,7%-i, Şərurda isə 2,3%-i düşür.

MR-də əhalisinin sayı 200 nəfərə qədər olan kəndlərin sayı azdır və bu kəndlərdə yaşayan əhalinin sayı da azlıq təşkil edir. Əhalisi 100-200 nəfər arasında olan 15 kənd mövcuddur və bu məntəqələrdə 2421 nəfər yaşayır. Onların əsas hissəsi (7 kənd) Ordubad rayonunun payına düşür. Əhalinin köçüb getməsi ilə əlaqədar 2009-cu ildə Naxçıvan MR-də 4 kəndin əhalisi olmamışdır. Onlara Ordubad rayonunda Kilit kəndi, Şərur rayonunda Günnüt və Bəhruz Kəngərli kəndləri, Şədərək rayonunda Kərki kəndi aiddir. Kərki kəndi işğal altındadır.

**Nəticə.** Aparılan təhlillərə əsasən aşağıdakı nəticələri qeyd etmək olar:

1) Naxçıvan MR-də əksər şəhər və qəsəbələrdə əhalinin sayı 5 min nəfərdən azdır. Bu qruplara daxil olan məntəqələrdə əhalinin məhdud sayı iri istehsal obyektləri şəbəkəsinin yaradılmasına imkan vermir, əhaliyə göstərilən xidmətlərin səviyyəsi aşağıdır. Ona görə əhalinin sayının artması üçün, ilk növbədə, xidmət obyektlərinin yaradılması, yerli təbii ehtiyatlardan isti-

fadə edilməsi, kənd təsərrüfatı məhsullarının emalı əsasında istehsal sahələrinin yaradılması, bu sahələrə xidmət edən maddi-texniki obyektlərin təşkili, şəhər əhalisinin iş yerləri ilə təminatında onların rolunun yüksəldilməsi istiqamətində tədbirlərin genişləndirilməsinə ehtiyac vardır.

2) Naxçıvan MR-də şəhər və kənd yaşayış məntəqələrinin, onlarda toplanan əhalinin sayının dinamikasında olan meyillərin öyrənilməsi göstərir ki, iqtisadi və sosial baza zəif olduğundan məntəqələrin inkişafı zəif templə gedir. Buna baxmayaraq, zaman keçdikcə kəndlərdə əhalinin sayı artır, onlar daha yuxarı qruplara keçir. Əhalisinin sayı çox olan bəzi kəndlər şəhər məntəqələrinə çevrilə bilər. Bu isə onların inkişafına kömək etmiş olar.

3) Təsərrüfat sahələrinin ixtisaslaşması, məntəqələrin yerləşdiyi ərazilərin relyef şəraiti və mütləq hündürlüyü də əhalinin sayını müəyyən edən amillər sırasına daxildir. Əhalisinin sayı kifayət qədər olan bir sıra kəndlərdə sosial obyektlər şəbəkəsi qurulur, əhaliyə yerlərdə göstərilən sosial-mədəni xidmətlərin səviyyəsi yüksəlir. Uzun illər üzümçülük, tütünçülük və meyvəçilik sahələrinin inkişafı MR-də Araz çayı boyu kəndlərdə əhalinin cəmlənməsinə imkan vermişdir. Kəndlərin əhalisinin çoxalması, yerləşdikləri ərazinin İCM-i onların həmçinin qeyri-kənd təsərrüfatı funksiyasını yerinə yetirməsinə şərait yaradır.

## ƏDƏBIYYAT


AZƏRBAYCANIN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ – 2011. 2012. DSK. Bakı

AZƏRBAYCANIN ƏHALİSİ – 2011. 2012. DSK. Bakı.

AZƏRBAYCANIN STATİSTİK GÖSTƏRİCİLƏRİ – 2011. 2012. DSK. Bakı.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN 1999-CU İL SİYAHIYAALMASININ YEKUNLARI. 2000. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. DSK. Bakı.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN 2009-CU İL SİYAHIYAALMASININ YEKUNLARI. 2010. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. DSK. Bakı.

EMİNOV, Z.N. 2005. Azərbaycanın əhalisi. Çıraq, Bakı.

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Elm. Bakı. 196s.

MEHRƏLİYEV, E.Q. 2003. Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili. Elm. Bakı. 236s.

NADİROV, A.A., NURİYEV, Ə.X., MURADOV, Ş.M. 2000. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Elm. Bakı. 104s.


*Məqaləyə c.e.n. Z.N.Eminov rəy vermişdir.*